


# ŞƏRQ qapısı

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 249 (24.136)

*30 dekabr 2022-ci il, cümə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Bölgələrdə turizm infrastrukturunun və xidmətin səviyyəsi yüksəldilir

### *Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva "Şabran" İstirahət Kompleksinin açılışında iştirak ediblər*

Dekabrın 29-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri Şabran rayonunda "Şabran" İstirahət Kompleksinin açılışında iştirak ediblər.

Dövlətimizin başçısı, birinci xanım və ailə üzvləri kompleksdə yaradılan şəraitlə tanış oldular.

Azərbaycan Respublikası Prezidentinin İşlər müdiri Ramin Quluzadə dövlətimizin başçısına və birinci xanıma oteldə görülən işlər barədə məlumat verdi.

Bildirildi ki, Şabran rayonunun Pirəbədil kəndində yerləşən kompleks paytaxt Bakıdan 147 kilometrlik məsafədədir. Kompleksin ərazisində 12,6 hektar sahədə inşa olunan otel müxtəlif kateqoriyalı 119 nömrədən, birmərtəbəli 10, ikimərtəbəli 20 kottecdən ibarətdir.

Kompleks Azərbaycanda Hindistanın qədim təbabət sistemi – Ayurveda ilə müalicə metodlarını tətbiq edən ilk istirahət mərkəzidir. Burada peşəkar Pançakarma (toksinlərdən azadolma) mütəxəssisləri tərəfindən Hindistan ənənələri əsasında xüsusi orijinal terapiya metodları təklif edilir.














"Ayurveda Spa" mərkəzində gözəllik salonu, 6 prosedur otağı, fin saunası, buxar otağı, istirahət zonası və qapalı hovuz vardır. Burada, həmçinin fitnes və yoqa ilə məşğul olmaq üçün hər bir şərait yaradılıb. Mərkəzdə şəfalı Pançakarma prosedurları, Pranayama seansları, yoqa və həyat tərzi üzrə təlimlər təşkil olunacaq.

Eyni zamanda kompleksdə "Rübai", "Ahəng", "Ocaq" restoranları, "Misra Lobby Lounge", "Badə Lounge Bar", "Aura Cafe", müxtəlif əyləncə və oyun otaqları fəaliyyət göstərəcək.

Oteldə işgüzar görüşlər, konfranslar və xüsusi tədbirlər üçün 180 nəfərlik "Bayatı" və "Şiraz" konfrans zalları yaradılıb. Həm də yaradıcılıq mərkəzi kimi xidmət göstərəcək kompleksdə bəstəkarlar, yazıçılar və rəssamlar üçün kotteclər də nəzərdə tutulub.

Qeyd edək ki, Şabran rayonu turizm marşrutları üzrə mühüm istiqamətlərdən biri olmaq potensialına malikdir. Odur ki, artan tələbata uyğun olaraq rayon ərazisində infrastrukturun formalaşdırılması əsas vəzifələrdən biridir. Prezident İlham Əliyevin istifadəyə verilən yeni istirahət kompleksi ilə tanış olması dövlətimizin bu məsələyə həssas münasibətini nümayiş etdirir.

Beləliklə, bu kompleksin istifadəyə verilməsi bölgələrdə turizm infrastrukturunun və xidmət səviyyəsinin yaxşılaşdırılması baxımından növbəti mühüm addımdır.

**AZƏRTAC**

## Replikaya cavab



Qəzetimizin dünənki nömrəsində dərc olunmuş *“Naxçıvan şəhər sakinləri yeni avtobuslarına nə zaman sahib olacaqlar?”* başlıqlı replikaya Azərbaycan Respublikası Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin mətbuat xidməti tərəfindən cavab daxil olmuşdur:

**“Şərq qapısı” qəzetində 29 dekabr 2022-ci il tarixdə dərc edilən Naxçıvan şəhər daxilində tətbiq olunan qiymətlərlə əlaqədar Nazirlər Kabinetinin mətbuat xidməti bildirir ki, Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2022-ci il 14 mart tarixli Qərarı ilə “Naxçıvan Muxtar Respublikasında müntəzəm avtobus marşrutlarında sərnişindaşıma xidmətlərinin tarifləri” təsdiq edilmişdir. Həmin tariflərə əsasən şəhərdaxili sərnişindaşıma (məsafədən asılı olmayaraq) 30 qəpik müəyyən edilmişdir.**

**Qərar icra üçün aidiyyəti qurumlara göndərilmişdir. Adıçəkilən Qərar 1 aprel 2022-ci il tarixindən qüvvədədir.**

**“Şərq qapısı”**

---

*Son iki əsrdə Qafqazda azərbaycanlılara qarşı məqsədyönlü şəkildə həyata keçirilən etnik təmizləmə və soyqırımı siyasəti nəticəsində xalqımız ağır məhrumiyyətlərə, milli faciə və məşəqqətlərə məruz qalmışdır. Mərhələ-mərhələ gerçəkləşdirilən belə qeyri-insani siyasət nəticəsində azərbaycanlılar min illərboyu yaşadıqları öz doğma tarixi-etnik torpaqlarından didərgin salınaraq kütləvi qətl və qırğınlara məruz qalmış, xalqımıza məxsus minlərlə tarixi-mədəni abidə və yaşayış məskənləri dağıdılıb viran edilmişdir. Tarixi mənbələrdən də aydın göründüyü kimi, erməni millətçiləri “dənizdən-dənizə” böyük imperiya xülyasına qapılaraq XIX-XX əsrlərboyu Azərbaycan xalqına qarşı etnik təmizləmə, soyqırımı siyasətini davam etdirmişlər.*

*Tarixi Azərbaycan torpaqları*

# Qərbi Azərbaycana qayıdışın yol xəritəsi

## *Tarixə baxış*



1828-ci ildə Türkmənçay sülh müqaviləsi imzalandıqdan sonra müqavilənin şərtlərindən biri kimi, İrandan imperiya sərhədlərinə qatılmış ərazilərdəki demoqrafik vəziyyəti dəyişmək üçün İrəvan və Qarabağ xanlıqlarının mövcud sərhədləri içinə köçürülən ermənilər XIX əsrin 60-70-ci illərindən başlayaraq azərbaycanlılara qarşı analoji siyasətin əsasını qoydular. Burada yaşayan azərbaycanlılar isə zaman- zaman – 1905-1906, 1918-1920, 1948-1953 və 1988-1991-ci illərdə tarixi-etnik torpaqlarından deportasiya olunmuşlar. 1988-1991-ci illərdə SSRİ dövlətinin himayəsi altında Ermənistan dövləti Qərbi Azərbaycandan – indiki Ermənistan ərazisindən 250 mindən artıq azərbaycanlını ata-baba torpaqlarından deportasiya etmişdir. Ümumiyyətlə, XX əsrdə iki milyondan çox azərbaycanlı torpaqlarımızda yerləşən indiki Ermənistanda soyqırımına məruz qalmışdır.

### *Qədim yurd yerimiz – Qərbi Azərbaycan*

Qərbi Azərbaycan zəngin tarixi, mədəniyyəti, adət-ənənəsi olan tarixi Azərbaycan bölgəsidir. Bu bölgənin dərin kökləri və özünəməxsus siması olan memarlığı, xalq sənəti, musiqi ənənələri formalaşmışdır. Elmə, təhsilə böyük həvəs və hörmət, mütərəqqi mədəniyyətə rəğbət bölgənin insanları arasında görkəmli siyasətçilərin, elm və mədəniyyət xadimlərinin yetişməsinə səbəb olmuşdur. Bu gün Qərbi Azərbaycan adlandırdığımız ərazi əvvəl Çuxursəd bəylərbəyliyi sonra isə Səfəvi dövləti tərkibində olan Azərbaycan torpaqlarıdır. Nadir şahın qətlindən sonra bu ərazidə İrəvan xanlığı yaradılıb. İrəvan xanlığı da birmənalı olaraq Azərbaycan torpaqları olduğuna görə Azərbaycan ərazisidir. 1828-ci il Türkmənçay müqaviləsinə qədər bu əraziyə gələn səyyahlar, tarixçilər, ticarətlə məşğul olanlar hər biri bu ərazini Azərbaycan ərazisi kimi görüb. Bu ərazidəki bütün tarixi və dini abidələr azərbaycanlı əhaliyə məxsus olub. Həm tarix, həm də məntiq birmənalı şəkildə sübut edir ki, bu torpaqlar Azərbaycan torpaqlarıdır. XX əsrdə erməni millətçilərinin torpaqlarımızın mənimsənilməsinə yönəlmiş düşmənçilik siyasəti, sovet hakimiyyəti tərəfindən həyata keçirilən deportasiyalar Qərbi azərbaycanlıları öz yurd-yuvalarından didərgin salmış və çoxsaylı insan tələfatı ilə nəticələnmişdir. Dövlət başçısı cənab İlham Əliyev öz çıxışlarında dəfələrlə Qərbi Azərbaycanın, İrəvanın, Zəngəzurun və Göyçənin tarixi Azərbaycan torpaqları olduğunu vurğulayıb. Ölkə rəhbəri Qərbi Azərbaycandan olan bir qrup ziyalı ilə görüşündə bu məsələni bir daha bəyan etdi: ***“Əfsuslar olsun ki, ermənilər Qarabağdakı kimi, Qərbi Azərbaycanda da bizim bütün tarixi, dini abidələrimizi yerləyeksan ediblər, dağıdıblar, azərbaycanlıların tarixi irsini silmək istəyiblər, ancaq buna nail ola bilməyiblər. Çünki tarix var, sənədlər var, xəritələr var. Bu binada nümayiş etdirilən, XX əsrin əvvəllərinə təsadüf edən xəritə bir daha onu göstərir ki, Qərbi Azərbaycan tarixi Azərbaycan diyarıdır, şəhərlərin, kəndlərin adları Azərbaycan mənşəlidir və biz yaxşı bilirik ki, indiki Ermənistan ərazisində tarixboyu Azərbaycan xalqı yaşayıb”.***

Xalqımızın taleyində faciəvi rol oynamış tarixi faktlardan biri 1918-ci ildə təzə yaradılmış Azərbaycan Xalq Cümhuriyyətinin qərarı ilə tarixi şəhərimiz – İrəvanın Ermənistana bağışlanması olub. Bundan sonra erməni milliyyətçiləri daha da iştahalanaraq min bir fitnə-fəsadla tarixi Azərbaycan ərazilərinə ard-arda yiyələnməyə başlayıblar, 1920-ci ildə Zəngəzuru və Azərbaycanın bir sıra digər torpaqlarını da sovet hakimiyyətinin köməyi ilə Ermənistana birləşdirməyə nail oldular. Amma bu da xalqımıza, Qərbi azərbaycanlılara qarşı törədilən faciələrin sonu olmayıb. 1948-1953-cü illərdə sovet hökumətinin xalqımıza qarşı növbəti cinayətinin nəticəsi olaraq Qərbi azərbaycanlılar növbəti deportasiyaya məruz qalıblar. 1980-ci illərin sonlarında Ulu Öndər Heydər Əliyevin hakimiyyətdən getməsindən istifadə edən həm erməni millətçiləri, həm də onların sovet hökumətindəki havadarları azərbaycanlılara qarşı həyata keçirdikləri sistemli cinayətləri davam etdiriblər. Ümummilli Lider Heydər Əliyev 1987-ci ilin noyabrında bütün vəzifələrdən uzaqlaşdırılandan iki həftə sonra erməni millətçiləri baş qaldıraraq və sovet hökumətinin dəstəyini alaraq həm Qarabağda, həm də Ermənistan SSR-də xalqımıza qarşı növbəti cinayətə başlayıblar. Azərbaycanlılar tarixi diyarları Qərbi Azərbaycandan deportasiya ediliblər.

Ötən illər ərzində ermənilər qəsb etdikləri qədim Azərbaycan torpaqlarında maddi-mədəni irsimizə qarşı da soyqırımı siyasəti həyata keçiriblər, o cümlədən də Qərbi Azərbaycanda. Əzəli torpaqlarımız İrəvana, Zəngəzura, Göyçə mahalına zorla yiyələnən ermənilər özlərinə saxta tarix quraşdırmaq üçün, ilk növbədə, o ərazilərdəki qədim toponimlərimizə hücum ediblər. Yer adlarımızı dəyişdirib uydurma erməni adları qoyublar, türk dilində mövcud olan yer adlarını dəyişdiriblər.

### *Tarixi zəfərdən böyük qayıdışa*

Ümummilli Liderimizin 1993-cü ilin ağır, həyəcanlı günlərində Azərbaycan xalqının təkidli tələbi nəticəsində ikinci dəfə hakimiyyətə qayıdışı ilə Azərbaycanın sabitlik, inkişaf və tərəqqi mərhələsi başladı. Ulu Öndərimiz Heydər Əliyevin bütün vəsiyyətlərini sədaqətlə həyata keçirən Müzəffər Ali Baş Komandan Prezident cənab İlham Əliyevin müasir dövrün çağırışlarına cavab verən uzaqgörən siyasəti sayəsində və zəngin dövlət idarəetmə təcrübəsi ilə Azərbaycan bu gün tarixinin intibah dövrünü yaşayır. Vətən müharibəsi tamamilə yeni reallıqlar yaratdı. Bu reallıqlar Azərbaycanın beynəlxalq səviyyədə təsdiq olunmuş hüquqlarını bərpa etməsi, torpaqlarımızın işğaldan azad olunması, Ermənistanın işğal siyasətinə birdəfəlik son qoyulmasıdır. Bu gün Azərbaycan beynəlxalq aləmdə böyük nüfuza malikdir və etibarlı tərəfdaş imicini qazanıb. Həm Vətən müharibəsi, həm də ondan sonrakı dövrdə Azərbaycanın beynəlxalq aləmdə olan nüfuzunun böyük müsbət nəticələri özünü göstərdi. Bunun nəticəsidir ki, bu gün Azərbaycanın regionda yaratdığı yeni reallıqlar beynəlxalq birlik tərəfindən qəbul olunur və dəstəklənir.

44 günlük Vətən müharibəsində qazandığımız parlaq zəfərin üzərindən heç bir gün keçməmiş Müzəffər Ali Baş Komandan yurdlarından didərgin salınan yüz minlərlə insanın tezliklə doğma torpaqlarına qovuşacağının müjdəsini vermiş və demişdi: ***“Siz köçkün deyilsiniz, siz qayıdırsınız”.***

Bəli, bu gün Şərqi Zəngəzurda və Qarabağda böyük quruculuq və bərpa işləri aparılır. İşğaldan azad edilən torpaqlarımızda infrastruktur yenilənir, yollar çəkilir, beynəlxalq hava limanları tikilir. Eyni zamanda barbar ermənilərin illərlə divan tutduğu tarixi, mədəni, dini irsimiz bərpa olunur. Yeni şəhərlərin təməli qoyulur, “ağıllı kənd”lər salınır. Soydaşlarımız doğma yurd-yuvalarına qayıdır. Əlbəttə, böyük qayıdış təkcə Şərqi Zəngəzura, Qarabağa deyil, həm də Qərbi Azərbaycana gözlənilir.

### *Qərbi Azərbaycana qayıdışın astanasında*

Azərbaycan addım-addım özünün tarixi məqsədlərinə doğru irəliləyir. Vətən müharibəsində qazanılan Qələbə son 200 illik tariximizin ən böyük Zəfəridir. Son iki əsrdə xalqımız daim torpaq itkilərinə məruz qalıb. Buna Prezident, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin uzaqgörənliyi və mahir sərkərdəlik qabiliyyəti sayəsində Vətən müharibəsində son qoyuldu. Azərbaycan iki əsrdə ilk dəfə olaraq itirilmiş torpaqlarını geri qaytardı. Qələbəmizdən doğan tarixi reallıqların nəticəsidir ki, qarşıda soydaşlarımızı Qərbi Azərbaycana böyük qayıdış gözləyir. Bu hədəfi Prezident cənab İlham Əliyev dekabrın 24-də Qərbi Azərbaycandan olan bir qrup ziyalı ilə görüşündəki nitqində bəyan etdi: ***“Əminəm ki, gün gələcək və Qərbi Azərbaycandan olan soydaşlarımız, onların yaxınları, uşaqları, nəvələri tarixi diyarımız olan Qərbi Azərbaycana qayıdacaqlar. Mən əminəm ki, bu gün gələcək və əminəm ki, Qərbi azərbaycanlılar böyük coşqu və həvəslə öz doğma torpaqlarına qayıdıb orada yaşayacaqlar”***, – deyə dövlətimizin başçısı vurğulayıb. Prezident İlham Əliyev soydaşlarımızın Qərbi Azərbaycana qayıdacaqları ilə bağlı hədəfi bəyan edərkən azərbaycanlıların xarakterində olan çox mühüm bir amilə – xalqımızın tarixi yaddaşına istinad edib.



Görüşdə Möhtərəm Prezident tarixi faktlara nəzər salaraq Qərbi Azərbaycanın əzəli və əbədi tarixi torpaqlarımız olduğunu dünya ictimaiyyətinə bir daha bəyan etdi: ***“Qərbi Azərbaycan bizim tarixi torpağımızdır, bunu bir çox tarixi sənədlər təsdiqləyir, tarixi xəritələr təsdiqləyir, bizim tariximiz təsdiqləyir. Ancaq əfsuslar olsun ki, ermənilər Qarabağdakı kimi, Qərbi Azərbaycanda da bizim bütün tarixi, dini abidələrimizi yerləyeksan ediblər, dağıdıblar, azərbaycanlıların tarixi irsini silmək istəyiblər, ancaq buna nail ola bilməyiblər. Çünki tarix var, sənədlər var, xəritələr var. Bu binada nümayiş etdirilən, XX əsrin əvvəllərinə təsadüf edən xəritə bir daha onu göstərir ki, Qərbi Azərbaycan tarixi Azərbaycan diyarıdır, şəhərlərin, kəndlərin adları Azərbaycan mənşəlidir və biz yaxşı bilirik ki, indiki Ermənistan ərazisində tarixboyu Azərbaycan xalqı yaşayıb. İndi əsas vəzifə ondan ibarətdir ki, dünya ictimaiyyəti də bunu bilsin. Artıq bu istiqamətdə işlər başlamışdır. Ancaq əminəm ki, İcma bu işləri daha məqsədyönlü şəkildə və nəticəyə hesablanmış tərzdə aparacaqdır”.***

Dövlət başçısı əvvəllər Qarabağın azərbaycanlı icmasına məxsus binanı Qərbi azərbaycanlılara hədiyyə etməklə həm də bu soydaşlarımızın da tezliklə tarixi torpaqlarına qaytarılacağına rəmzi işarə vurdu: ***“Bütövlükdə, XX əsrdə xalqımızın çəkdiyi əzablar haqqında dünya ictimaiyyətinə daha geniş məlumat verilməlidir. Biz hər zaman həqiqəti deyirik. Azad edilmiş torpaqlara gələn 10 minlərlə xarici vətəndaş bu gün artıq öz gözləri ilə görür ki, xalqımız hansı vəhşiliklərə məruz qalıb. Bu gün orada gedən genişmiqyaslı quruculuq işləri bir daha xalqımızın iradəsini göstərir. Yenə də deyirəm, Ağalı kəndinin timsalında biz xalqımızın tarixi yaddaşını görürük. Çünki oranı heç vaxt görməyən uşaqlar, gənclər oraya qayıdıblar. Əminəm ki, biz eynisini Qərbi Azərbaycanda da görəcəyik”*** fikri ilə bir daha hər bir soydaşımızda böyük ümid və inam yaratdı.

### *Beynəlxalq konvensiyaları özündə ehtiva edən Qayıdış Konsepsiyası*

Dövlət başçımızın Qarabağ İcmasının bir qrup üzvü ilə görüşündə Qərbi Azərbaycana Qayıdış Konsepsiyasının hazırlanmasının xüsusi qeyd edilməsi artıq özündə bütün məqamları birləşdirir. Dövlət başçısı bu məsələni xüsusi vurğulayaraq dedi: ***“Mən bununla paralel olaraq hesab edirəm ki, biz birgə səylərlə Qərbi Azərbaycana Qayıdış Konsepsiyasını da işləməliyik. Qarabağ münaqişəsi həll olunandan sonra indi bizim gündəliyimizdə duran məsələ budur. Əlbəttə ki, Qarabağ münaqişəsi həll olunmayana qədər bu haqda danışmaq, bəlkə də, tez idi. Ancaq, məncə, bu gün biz vaxt itirməməliyik. Qayıdış Konsepsiyası hazırlanmalıdır. Yenə də bu, necə deyərlər, sülhsevər konsepsiya olmalıdır. Biz bütün beynəlxalq konvensiyalarda bizə məqbul olan müddəaları götürüb bunun əsasında öz hüququmuzu tələb etməliyik. Qayıdış Konsepsiyası olmalıdır. Bizim tarixi yaşayış yerlərinin bir çoxu, mütləq əksəriyyəti indi bomboşdur. Biz bunu bilirik. Biz öz keçmişimizi yaxşı bilirik. Qərbi Azərbaycandan olan hər bir insan öz ulu babalarının yaşadıqları yerləri yaxşı bilir. İndi müxtəlif yollarla bu informasiyanı əldə etmək olar. Azərbaycanlıların yaşadıqları yerlərin əksəriyyətində heç kim yaşamır. Ermənistanda, bütövlükdə, indi depopulyasiya dövrü hökm sürür. İnsanlar oradan gedir. Həm təbii artım yoxdur, eyni zamanda dözülməz siyasi vəziyyət, repressiyalar, faktiki olaraq diktatura və iqtisadi çətinliklər onları buna vadar edir. Bizim kəndlərimiz dağıdılır. Biz buna dözə bilmərik. Ona görə biz Qayıdış Konsepsiyası üzərində işləməliyik. Bu, çox sanballı sənəd olmalıdır”.***

Ali Baş Komandanın qeyd etdiyi kimi, məcburi köçkünlərimizin öz torpaqlarına qayıtmaları ilə bağlı ümummilli arzularımız necə reallığa çevrildisə, çox çəkmədən İrəvana, Göyçəyə, Zəngəzura qayıdış arzularımız da gerçək olacaq. Buna isə xalqın inamı sonsuzdur. Çünki bunu təmin edəcək qüdrətli liderimiz, müzəffər sərkərdəmiz və güclü ordumuz var.

*Bəli, bu, tarixin də, zamanın da tələbidir və Qərbi Azərbaycana qayıdış prosesi mütləq gerçəkləşdiriləcək. Tarixi ərazilərimizə qayıdışın gerçəkləşəcəyinin əminliyini isə bizdə Müzəffər Ali Baş Komandan İlham Əliyevin “Dəmir yumruq” sayəsində qazandığı parlaq Zəfər yaratdı. Qarabağ və Şərqi Zəngəzura doğma sakinlərin qayıdışı yaratdı!*

**Arzu ABDULLAYEV**
*Yeni Azərbaycan Partiyası*
*Naxçıvan Dövlət Universiteti*
*ərazi partiya təşkilatının sədri,*
*tarix üzrə fəlsəfə doktoru*

Ordun varsa, yurdun var

# Vətən başlanan yerdə xidmət etmək məsuliyyəti

## *Doğma torpaqlarımızın keşiyində birgə dayanmaq əsl həmrəylik nümunəsidir*

*Dəfələrlə muxtar respublikanın sərhəd yaşayış məntəqələrində olmuş, bu ünvanlarda Vətənə xidmət borcunu yerinə yetirən igid eloğullarımıza yaradılmış şəraiti görmüşəm. Qəvi düşmənlə, sözün həqiqi mənasında, bir addımlıqda üzbəüz dayanan əsgərlərimizdə müşahidə etdiyim vətənpərvərlik hissləri qəlbimi qürur hissi ilə doldurub. Xəyalımda yaşayan bu hisslərlə ötən günlərin birində Babək rayonunun Aşağı Buzqov kəndinə üz tutduq. Buradakı kiçik bölük mərkəzinin timsalında Azərbaycan Silahlı Qüvvələrinin döyüş hazırlığını yüksəltmək üçün həyata keçirilən məqsədyönlü tədbirlərin canlı şahidi olduq. Bir daha neçə illər əvvəl gördüyüm məqamları yadıma saldım. Və ondan sonrakı dövrlərdə belə ünvanlarda həyata keçirilən və davamlı xarakter alan tədbirləri də xatırlamağım yerinə düşər.*

### *Əsgərlərlə ilk görüş*

Bölük mərkəzinin həyətində avtomobildən düşürük. Ətrafa baxıram. Bölüyü və ümumiyyətlə, Aşağı Buzqovu əhatəyə alan Şorrax, Armudlu, Ağbulaq, Qara quzey dağları buraya bir möhtəşəmlik bəxş edib. Onu da deyim ki, Aşağı Buzqov kənd inzibati ərazi dairəsi üzrə nümayəndənin müavini Hüseyn Zeynallı, kənd tam orta məktəbinin direktoru, Naxçıvan Muxtar Respublikasının Əməkdar müəllimi Həsən Quliyev də bizimlədir. Yolyoldaşlarımın söhbətlərindən hiss edirəm ki, onlar hərbçilərlə sıx əlaqə saxlayır, tez-tez görüşür, əlamətdar və tarixi günlərdə, bayram ərəfələrində Vətənimizin keşiyində dayanan igid eloğullarımızın yanlarında olurlar. Bu zaman qarşımızda bir əsgər görürük. Təbəssümlə bizimlə görüşür. İnanın, vallah, mübaliğə deyil – onun səliqəli geyimindən, danışığından hiss olunan nizam-intizamı, əsgəri addımları belə, düşmənə gözdağıdır. Bir daha düşünürəm ki, məhz belə igidlərin hesabına 30 il düşmən tapdağı altında olan torpaqlarımızı geri qaytardıq. Mən bu düşüncələrdə ikən əsgər kimin yanına gəldiyimizi soruşur. Deyirik ki, elə burada xidmət keçənlərin hamısının. Zarafat etdiyimizi görən əsgərin üzünə təbəssüm qonur. Onunla hərbi hissənin həyətinə daxil oluruq. Burada valideynlər də var. Onlar öz övladlarının görüşünə gəliblər. Hal-əhval tuturuq, söhbətə körpü salırıq. Bu an bir əsgər görüş yerinə yaxınlaşır. Valideynlərdən biri ayağa qalxaraq ona sarı addımlayır. Əsgər bizimlə görüşməyi də unutmur. Elə görüşür ki, sanki neçə illərdir, bir-birimizi tanıyırıq. Elə bu anda düşünürəm ki, başqa cür də ola bilməz. Ordu sıralarında Vətənə müqəddəs borcunu yerinə yetirən oğullarımız ata-baba əmanəti olan torpaqlarımızın keşiyində dayanıb. Onlar hamımız üçün əzizdir. Söhbət zamanı daha bir qürur duyduğum məqam o oldu ki, əsgərlər torpaqlarımızın daha əziz və müqəddəs olmasını dəfələrlə vurğuladılar. Bu qiymətli, heç nə ilə əvəz olunmayan sərvətin keşiyində dayanmağı ən şərəfli bir vəzifə və vətəndaşlıq borcu saydıqlarını dilə gətirdilər.

### *Zabitlər göstərilən qayğıdan razılıq edirlər*

Elə əsgərlərlə qısa söhbətim bu yazının yazılmasına səbəb oldu. Bölük komandiri, baş leytenant ***Yusif Həsənov****a* fikrimi bildirdim. Üzünə təbəssüm qondu:

– Hərbi hissənin öz qanun-qaydaları var. Bu qaydalara riayət etmək lazımdır, – deyərək gözləməyi xahiş etdi, bizdən uzaqlaşdı. Bu bir neçə dəqiqə ərzində valideynləri ilə görüşə gələn əsgərlərin əsgər həyatının özəllikləri ilə bağlı söhbətlərinə qonaq olduq. Onların bir-birləri ilə mehribançılıqları, səmimi rəftarları bizə bir ailəni xatırlatdı.



Bu an bizə yaxınlaşan zabit bölükdən yazı hazırlamağa rəhbərlikdən icazə alındığını bildirir. Haşiyə çıxaraq qeyd edim ki, bu məqamı, ümumilikdə, Azərbaycan Silahlı Qüvvələrində yaradılmış yüksək nizam-intizam kimi qəbul etmək lazımdır. Nizam-intizam olan yerdə isə hər çətinliyi dəf etmək mümkündür. Bölük mərkəzində olduğumuz bir neçə saat ərzində isə burada heç bir çətinliyin olmadığını gördük.

Yusif Həsənovla söhbət edirik. Deyir ki, bu gün blokada vəziyyətində olmasına baxmayaraq, inkişaf və tərəqqi edən ölkəmizdə, eləcə də Naxçıvan Muxtar Respublikasında ardıcıl və sistemli şəkildə həyata keçirilən ordu quruculuğu prosesi bütün hərbi hissələri əhatə edib. Hərbi hissələrdəki yeniliklər real vəziyyətin obyektiv göstəricisidir. İndi doğma diyarımızın bütün hərbi hissələri belə yeniliklərlə doludur və bu ünvanlarda özünü qabarıq şəkildə göstərən nizam-intizam, səliqə-sahman, yüksək döyüş ovqatı qürur və sevinc hissi doğurur. Əsgərlərin və zabitlərin nümunəvi xidmət və qulluğu üçün bu bölük mərkəzində də hərtərəfli şərait yaradılıb. Müasir tələblər səviyyəsində qurulmuş yeməkxana, anbar ilk baxışda səliqə-sahmanı, gigiyenik-sanitar qaydalara cavab verməsi ilə diqqəti cəlb edir. Əsgərlərin asudə vaxtlarının səmərəli keçirilməsi təmin olunub. Bundan əlavə, şəxsi heyətin fiziki sağlamlığının təmin edilməsi məqsədilə hərbi hissənin həyətində lazımi idman qurğuları quraşdırılıb. Əsgərlər müntəzəm olaraq idmanla məşğul olur, fiziki hazırlıqlarını artırırlar. Burada əsgərlərin yüksəkkalorili və keyfiyyətli qida məhsulları ilə təminatına xüsusi önəm verilir. Yusif Həsənov bunu da diqqətə çatdırır ki, son illər ordu ilə xalq arasında yaradılmış sıx birliyi elə bu bölüyün və buzqovluların timsalında daha yaxından görmək mümkündür. Müntəzəm olaraq rayon İcra Hakimiyyəti və sərhəd bölgəsində fəaliyyət göstərən dövlət qurumları, həmçinin Aşağı Buzqov camaatı əsgərlərlə görüşə gəlir, onlara sovqatlar gətirirlər.

Öyrənirik ki, əsgərlərin müayinəsini düzgün aparmaq, ilkin müalicəni təşkil etmək üçün bölükdə hərtərəfli imkanlar yaradılıb. Bu da xidməti borcunu yerinə yetirən əsgərlərin sağlamlığının qorunmasında vacib şərtdir.

Yusif Həsənov deyir ki, bölükdə yüksək səviyyədə təmin olunmuş mənəvi-psixoloji ab-hava, əsgərlərin siyasi hazırlığının yüksəldilməsi diqqətdə saxlanılıb. Bunun üçün ideoloji otaqda lazımi şərait yaradılıb. Burada televizor, qəzet və jurnallar, müxtəlif bədii ədəbiyyatlar əsgər və zabitlərin siyasi və hərbi biliklərinin artırılmasında mühüm rol oynayır. İdeoloji-siyasi təlim məşğələlərində əsgərlərə izah olunur ki, Azərbaycanın,



həmçinin onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasının müxtəlif zamanlarda hərbi müdaxilələrə məruz qalması, əsasən, ordumuzun yeni formalaşdığı dövrlərə təsadüf edib. Elə ötən əsrin 90-cı illərinin əvvəllərində erməni hərbi birləşmələrinin muxtar respublikanın sərhədlərinə mütəmadi hücumlarının əsas hədəfi də bu qədim türk yurdunun işğal edilməsi məqsədini daşıyırdı. Tarixdən bəllidir ki, Naxçıvan torpaqlarına olan iddialar çoxdan var idi. Mənfur ermənilər həm ötən əsrin əvvəllərində, həm II Dünya müharibəsi dövründə, həm də sovetlər zamanında bu iddialarından əl çəkməmişlər. “böyük Ermənistan” yaratmağın əsas cinahlarından biri də qədim Naxçıvan torpaqlarını ələ keçirmək olub. Əsgərlərə o da çatdırılır ki, məhz Ulu Öndər Heydər Əliyevin Naxçıvanda ordu quruculuğuna başlaması ermənilərin bu xülyasının qarşısını aldı.





Digər bir zabit söhbətə qoşulur:

– Naxçıvan Muxtar Respublikasının müdafiə qabiliyyətinin möhkəmləndirilməsi məqsədilə 2013-cü ildə Ordu Korpusunun əsasında Əlahiddə Ümumqoşun Ordunun yaradılması, hərbi qulluqçuların mənzil-məişət şəraitinin yaxşılaşdırılması istiqamətində Naxçıvan şəhərində 20 təqvim ili və daha çox qüsursuz xidmət etmiş hərbi qulluqçulara yeni mənzillərin verilməsi, ötən illər ərzində zabitgizir ailələri üçün xidməti yaşayış binalarının açılış mərasimlərinin keçirilməsi, Əlahiddə Ümumqoşun Ordunun hissə və bölmələrinin komandir heyətinin yeni xidməti avtomobillərlə təmin olunması, əvvəlki illərdə aparılan hərbi quruculuq işlərinin davam etdirilməsi və digər tədbirlərin reallaşdırılması, ümumilikdə, orduya və orduda qulluq edən, xidməti borclarını yerinə yetirən zabit və əsgərlərə göstərilən qayğıdır. Azərbaycan Ordusunun qurucusu, Ulu Öndər Heydər Əliyev deyirdi: ***“Ordu qurmaq, silahlı qüvvələr yaratmaq böyük bir bina tikmək deyil. Ordu canlı orqanizmdir. Bu bir tərəfdən canlı orqanizm kimi yaşayır, ikinci tərəfdən isə canlı orqanizm kimi daim inkişaf etməlidir. Ona görə də biz Silahlı Qüvvələrimizi ilbəil təkmilləşdirməliyik, onun gücünü artırmalıyıq, peşəkarlıq səviyyəsini yüksəltməliyik, təchizatını ilbəil yaxşılaşdırmalıyıq”.***

Ulu Öndərin bu tövsiyələrinə ölkəmizdə, onun ayrılmaz tərkib hissəsi olan muxtar respublikamızda ciddi əməl edilir, ordunun müdafiə potensialının durmadan gücləndirilməsinə xüsusi diqqət yetirilir, kompleks tədbirlər həyata keçirilir, hərbi hissələrin maddi-texniki bazaları möhkəmləndirilir. Bizim bölüyə də belə qayğılardan pay düşüb. Vətənin müdafiəsinə daim hazır olan yüksək nizam-intizama malik hərbi hissəyə çevrilib.

### *Əsgərlərin söhbəti qürur doğurur*

Əsgərlərlə söhbət edirəm. İlk ünsiyyətdən onların döyüş hazırlığına, yüksək vətənpərvərliyinə, dövlətə, xalqa bağlı olduqlarına heç bir şübhəm qalmır. Əsgər Nihad Məmmədli Culfa rayonundandır. Fiziki və psixoloji cəhətdən əsl hərbçi, vətənpərvər və hərbi biliklərə malik gəncdir. Söhbət zamanı bildirdi ki, onlara şərəfli bir iş tapşırılıb. “Bizim üzərimizə böyük vəzifə düşür. Üzərimə düşən bu vəzifənin məsuliyyətli olduğunu dərk edirəm. Arxamızda güclü dövlətin durduğunu hiss edəndə belə mübarizlik daha da artır. Bu ifadəsini 2 il əvvəl gördük” sözlərini qürurla deyir. Şəmkir rayonundan gəlmiş Kənan Hacıyev bu qədim yurd yerində xidməti borcunu yerinə yetirməyindən fəxrlə danışır. Deyir ki, buraya gəlməmişdən Naxçıvan haqqında çox az məlumatı olub. Bu diyarın təbiətinin zənginliyindən, insanlarının səmimiyyətindən və qonaqpərvərliyindən ürəkdolusu danışır. Xidmət etdiyi bölükdə əsgərlər üçün yaradılmış şəraitdən də razılıq edir:



– Arxada qalan günlərin necə keçdiyini hiss etmədim. Çünki xidmətim dövrü bölükdə yüksək nizam-intizam, əsgərə qayğı gördüm, Naxçıvanda xidmət etməyimdən şərəf duyuram. Burada Azərbaycanın müxtəlif bölgələrindən hərbi xidmətə gələnlər var. Onlar da Naxçıvan barədə razılıqla danışırlar.

### *Ziyalılar deyirlər ki...*

Hər bir ölkənin təhlükəsizliyi onun sərhədlərinin etibarlı qorunmasından asılıdır. Sərhədlər isə o zaman etibarlı qorunur ki, onu qoruyan ordu çevik, peşəkar zabit və əsgər heyətindən ibarətdir. Azərbaycanın sərhədlərinin etibarlı qorunması bu gün onlara tapşırılıb. Əgər bu heyət qayğı ilə əhatə olunubsa, onda heç bir nigarançılığa əsas yoxdur, – bu sözləri bizimlə birgə olan Hüseyn Zeynallı deyir və vurğulayır ki, tez-tez əsgərlərlə görüşürük. Onların keyfiyyətli qida məhsulları ilə təminatı, məişət qayğıları yüksək səviyyədədir. Asudə vaxtları da səmərəli təşkil olunur. Düşünürəm ki, belə şəraitdə heç bir əsgərin pis xidmət etməyə haqqı yoxdur.

Həsən Quliyev də Hüseyn Zeynallının sözünə qüvvət verərək bildirir ki, bu gün hamı hərbi hissələrdə yaradılmış yüksək nizam-intizamdan razılıq edir. Valideynlər də fəxr duyurlar ki, övladları Vətənə olan ən böyük və müqəddəs vəzifəsini bir yerdə – düşmənlə sərhəddə yerinə yetirir. Bölükdəki şəraiti bu gün ölkəmizin bütün hərbi hissələrində görmək olar..

### *Vətən başlanan yerdə xidmət etmək məsuliyyəti*

Zabitlərlə, əsgərlərlə, valideynlərlə söhbətlərimizi, bölükdə gördüklərimizi qısaca da olsa, oxuculara çatdırmağa çalışdıq. Buna nə dərəcədə nail olduqsa, onu oxucular deyə bilər. Bizim gəldiyimiz qənaət isə belədir ki, bəhs etdiyimiz bölükdə qulluq və xidmət edənlər məsuliyyətlərini dərindən dərk edirlər. Vəzifə məsuliyyəti dərk olunan yer isə sərhəddir – Vətənin başlandığı yer. Vətənin başlandığı yer etibarla, ayıq-sayıqlıqla qorunursa, deməli, müstəqilliyimiz, dövlətçiliyimiz də etibarlı, ayıq-sayıqlıqla qorunur.

Yadıma Ulu Öndərin müdrik tövsiyəsi düşür: ***“Vətəni qorumaq öz ana torpağını, evini, obasını, yurdunu, şərəfini qorumaqdır. Vətəni qorumaq öz namusunu, şərəfini qorumaqdır. Vətəni qorumaq öz atasını, anasını, balalarını, övladlarını qorumaqdır. Vətəni qorumaq Azərbaycan xalqının tarixini, mənəviyyatını, əsrlərboyu əldə etdiyi milli mədəniyyətini, milli iftixarını qorumaq deməkdir. Bu, şərəfli yoldur. Bu, şərəfli vəzifədir”.***

**Muxtar MƏMMƏDOV**

## Naxçıvanda dövlət qurumlarına aid ilk rəsmi internet səhifəsi *“GOV.AZ”* zonasına köçürülüb

Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti (XRİTDX) tərəfindən Naxçıvan Muxtar Respublikasında dövlət orqanlarının internet səhifələrinin *“GOV.AZ”* zonasında qeydiyyatdan keçirilməsi ilə bağlı müvafiq tədbirlər həyata keçirilir.

XRİTDX-nin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, ilkin olaraq Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin (nmincom.gov.az) rəsmi internet səhifəsinin *“GOV.AZ”* domen zonasına köçürülməsi məqsədilə xidmətin əməkdaşları tərəfindən müvafiq təhlillər aparılıb.

Saytın audit yoxlamaları aparıldıqdan sonra zonada yerləşdirilməsi təmin edilib.

Qeyd edək ki, muxtar respublikada 11 dövlət qurumunun rəsmi internet səhifəsi Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin proqramçıları tərəfindən yenilənib. Belə ki, Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin *(nnk.gov.az)*, Ali Məhkəməsinin *(nsupremecourt.gov.az)*, Mərkəzi Seçki Komissiyasının *(nmsk.gov.az)*, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin *(neco.gov.az)*, Kənd Təsərrüfatı Nazirliyinin *(nagro.gov.az)*, Energetika Dövlət Xidmətinin *(nminenergy.gov.az)*, Dövlət İmtahan Mərkəzinin *(ndim.gov.az)* internet səhifələrinin audit yoxlamaları aparıldıqdan sonra *“GOV.AZ”* domen zonasına köçürülməsi planlı olaraq həyata keçirilməkdədir.

**AZƏRTAC**

*İclasa sədrlik edən gənclər və idman naziri Ramil Hacı gündəlikdə olan məsələləri diqqətə çatdırıb. Çıxış zamanı ölkə idmanı dahi siyasətçinin layiqli davamçısı Prezident İlham Əliyev tərəfindən daha da inkişaf etdirildiyini və nəticədə, Azərbaycanın nüfuzlu idman ölkələrindən birinə çevrildiyini deyən nazir dövlət idman siyasəti istiqamətində həyata keçirilən işlər barədə danışıb. Qeyd olunub ki, nazirlik 2022-ci ilin ötən dövrü ərzində bədən tərbiyəsi və idman sahəsi üzrə 247 tədbir keçirmiş, eyni zamanda Naxçıvan idmançıları ölkə səviyyəli yarışlarda 216, beynəlxalq turnirlərdə 63, Avropa çempionatında 33, dünya çempionatında 2, dünya kubokunda 2 medal olmaqla, 316 medal qazanıblar. Medallardan 131-i qızıl, 77-si gümüş, 108-i isə bürüncdür.*

## Naxçıvan Güləş Federasiyasının hesabat-seçki yığıncağı keçirilib



İclasın gündəliyində olan əsas məsələnin Güləş Federasiyasına yeni sədrin seçilməsi olduğunu vurğulayan Ramil Hacı bildirib ki, 2002-ci ildə yaradılan federasiyanın hazırda yunan-Roma, sərbəst güləş, cüdo və sambo idman növləri üzrə bölmələri mövcuddur. Muxtar respublikanın bütün şəhər və rayonlarında olmaqla, ümumilikdə, 71 qrup üzrə 1323 idmançı bu sahədə aktiv fəaliyyətdədir. Ölkə və beynəlxalq arenalarda müəyyən uğurlu nəticələrin, ümumi fəaliyyət istiqamətlərində irəliləyişlərin olmasına baxmayaraq, bu sahənin inkişafı ilə bağlı yüksək potensiallardan daha səmərəli istifadə edilməlidir. Dövlətimiz tərəfindən yaradılan şərait düzgün dəyərləndirilməli, yeni təklif və fikirlər paketi hazırlanmalıdır. Azərbaycan Güləş Federasiyası və Azərbaycan Cüdo Federasiyası ilə qurulan əməkdaşlıq əlaqələri daha da yüksəldilməli, ölkə və beynəlxalq təcrübələr sınaqdan keçirilməlidir. Naxçıvan Muxtar Respublikasının Gənclər və İdman Nazirliyi digər aidiyyəti qurumlar kimi Güləş Federasiyası ilə əməkdaşlıq əlaqələrinə önəm verir, bu sahənin inkişafı üçün növbəti işləri həyata keçirməyə daim hazırdır.

Federasiyanın sədr müavini Faiq İsgəndərov federasiyanın cari ildəki fəaliyyəti barədə hesabat xarakterli məlumatı diqqətə çatdırıb.

Hesabat-seçki yığıncağında federasiyaya yeni sədr kimi Faiq İsgəndərovun namizədliyi təklif olunub. Təklif səsə qoyulub və yekdilliklə qəbul edilib.

Faiq İsgəndərov minnətdarlığını ifadə edərək etimadı layiqincə doğrultmaq üçün federasiya kollektivi ilə birgə maksimum çalışacağını, bu sahədəki öhdəliklərin uğurlu icrası istiqamətində səylə fəaliyyət göstərəcəyini bildirib.

Gündəlikdə duran məsələlərlə bağlı hazırlanan qərar layihəsi oxunub və səs çoxluğu ilə təsdiq olunub.

Ramil Hacı bildirib ki, muxtar respublika idmanının inkişafı ilə bağlı gələcək gözləntilər nəzərə alınmaqla qarşıda mühüm vəzifələr dayanır. O, ümid etdiyini vurğulayıb ki, aradakı birgə və məqsədyönlü fəaliyyətinin nəticəsi olaraq ölkəmizdə həyata keçirilən dövlət idman siyasəti çərçivəsində qarşıya qoyulan tələb və tapşırıqlar yerinə yetiriləcək, yeni uğurlar əldə olunacaq.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

## Naxçıvanda xüsusi qayğıya ehtiyacı olan 1160 ailəyə bayram sovqatı verilib



Xüsusi qayğıya ehtiyacı olan, o cümlədən şəhid ailələri və qazilərə, müharibə iştirakçılarına, aztəminatlı ailələrə qayğı dövlətimizin sosial siyasətinin xüsusi istiqamətini təşkil edir. Bu məqsədlə ölkəmizdə müxtəlif layihələr icra olunur, həssas əhali qruplarının sosial müdafiəsinin gücləndirilməsi istiqamətində əhəmiyyətli işlər görülür.

Görülən çoxsaylı tədbirlərin davamı olaraq Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası İcraiyyə Komitəsinin qərarı əsasında muxtar respublikada yaşayan aztəminatlı, o cümlədən şəhid və qazi ailələrinə bayram sovqatları verilib.

Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il bayramı ərəfəsində Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurasının əməkdaşları tərəfindən təqdim edilən sovqatlar Naxçıvan şəhərindən 396, Şərurdan 205, Babəkdən 190, Ordubaddan 70, Culfadan 75, Şahbuzdan 71, Kəngərlidən 70, Sədərəkdən 83 olmaqla, ümumilikdə, 1160 ailəni əhatə edib.

**Xəbərlər şöbəsi**

## Naxçıvanda bayram günlərində teatr müəssisələri maraqlı repertuarla tamaşaçı qarşısına çıxacaq

*Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin tabeliyində fəaliyyət göstərən dövlət teatrları tərəfindən bayram günlərində maraqlı tamaşaların nümayişi nəzərdə tutulub.*




Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Milli Dram Teatrının kollektivi 1 və 2 yanvar tarixlərdə Vaqif Səmədoğlunun "Mamoy kişinin yuxuları", 3 və 4 yanvar tarixlərdə isə İlyas Əfəndiyevin "Xurşidbanu Natəvan" əsərləri əsasında səhnələşdirilmiş eyniadlı tamaşalarla teatrsevərlərin görüşünə gələcək. Tamaşalar saat $17^{00}$-da başlayacaq.

Məhəmməd Tağı Sidqi adına Naxçıvan Dövlət Kukla Teatrının yaradıcı kollektivi uşaqlara bayram sovqatı olaraq H.X.Andersenin "Qar Kraliçası", Ə.Qasımovun "İnanmayaq tülkülərə", Ə.Abbasovun "Keçinin qisası", N.İsmayılzadənin "Ağca və Bozca" əsərləri əsasında hazırlanmış tamaşalarla 1-4 yanvar tarixlərdə hər gün saat $10^{00}$, $12^{00}$, $14^{00}$ və $15^{30}$ olmaqla balaca tamaşaçılara yeni il sevincləri bəxş edəcək.

Naxçıvan Dövlət Uşaq Teatrının bayram sovqatında isə N.Nəzərovanın "Mavi işıq" pyesi və Qrimm Qardaşlarının "Bremen musiqiçiləri" nağılı əsasında səhnələşdirilən eyniadlı tamaşalar yer alır. "Mavi işıq" tamaşası 1 yanvar tarixdə saat $12^{00}$ və $14^{00}$-da, 3 yanvar tarixdə isə saat $11^{00}$ və $14^{00}$-da nümayiş olunacaq. "Bremen musiqiçiləri" tamaşası 2 və 4 yanvar tarixlərdə saat $11^{00}$ və $14^{00}$-da Uşaq Teatrının səhnəsində göstəriləcək.

Tamaşaçılarımıza bayram əhval-ruhiyyəsi, sevinc dolu günlər, yeni ili xoş ovqatla qarşılamaq arzu edirik.

***Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin mətbuat xidməti***

*Elimizin, ilimizin uğurları*

## Gələcək üçün atılan addımlar

### Gənclərin inkişafı ölkə üçün ən böyük investisiyadır

*Ölkəmizdə uğurla həyata keçirilən dövlət gənclər siyasəti nəticəsində gənclərimiz ictimai-siyasi və sosial-mədəni sahələrdə fəal iştirak edir ki, bu da gənclərlə iş sahəsində irəliləyişin əldə olunmasına, onların inkişafına təkan verir, cəmiyyətdə özlərini təsdiq etməsində mühüm rol oynayır. Ölkənin bütün regionlarında gənclər təşkilatlarının fəaliyyət göstərməsi, gənclərin bir qüvvə kimi formalaşdırılması Azərbaycanın gələcəyi naminə atılan addımdır. İmzalanan fərman, sərəncam, qəbul olunan Dövlət proqramları Naxçıvan Muxtar Respublikasında da gənc nəslin mütəşəkkil qüvvə kimi formalaşmasına, mənəvi-ideoloji cəhətdən tam yetkinləşməsinə, sosial problemlərinin həllinə, faydalı məşğulluğunun təmin olunmasına təsir göstərir. Həmçinin gənclərlə bağlı dövlət siyasətinin uğurla həyata keçirilməsi məqsədilə zəruri qanunvericilik bazasının formalaşdırılması da təmin edilir. Cari ildə muxtar diyarımızın gəncləri ölkədaxili və beynəlxalq tədbirlərdə iştirak etməklə dövlətin gənclərə diqqətinin əhəmiyyətli dərəcədə artmasını bir daha əyani olaraq göstərmiş oldular.*

2001-ci il yanvarın 12-də Culfa rayonunun Bənəniyar kəndində dünyaya gələn ***Elmar İsgəndərov*** üçün 2022-ci il uğurlu nəticələrlə yadda qalıb. 2018-ci ildə qəbul olduğu Naxçıvan Dövlət Universitetində Dövlət və bələdiyyə idarəetməsi ixtisası üzrə bakalavr təhsilini cari ildə tamamlayan Elmar, "Naxçıvan" Universitetində İqtisadiyyatın tənzimlənməsi ixtisası üzrə magistr adını qazanıb. 2019-cu ildən bəri Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin könüllülük proqramına, həmçinin Gənclərin İntellektual İnkişafı İctimai Birliyinə qoşulan gənc fəalımız bunun vasitəsilə bir çox tədbir və layihələrdə iştirak edib: "2020-ci ildə könüllülük fəaliyyətim üzrə "İlin könüllüsü" adına layiq görülmüşəm. Bununla yanaşı, bir çox layihənin təşkilində də aktiv fəaliyyətim olub. 2022-ci ildə Yeni Azərbaycan Partiyası Gənclər Birliyinin könüllülük proqramına seçilmişəm və Ümummilli Liderin əsasını qoyduğu Azərbaycançılıq ideologiyası üçün Azərbaycan Respublikasının bir gənci olaraq hərtərəfli fəaliyyət göstərmişəm".



Elmar İsgəndərov bununla yanaşı, muxtar respublikada keçirilən intellektual oyunlar üçün komanda yaradıb və 2019-cu ildə "Çoxnövçülük üzrə Qış kuboku" intellektual oyununun üçüncüsü, 2021-ci ildə muxtar respublika üzrə "Breyn-Rinq" oyununun qalibi olub. Həmçinin 2019-cu ildən bəri könüllü təşkilatlar və universitetlərarası təşkil edilən intellektual oyunlarda dərəcələrə layiq görülüb: "2020-ci ilin sentyabr ayından 2021-ci ilin yanvarına qədər ölkəmizin gəncləri tərəfindən başladılmış "informasiya müharibəsində" də fəal iştirak etmişəm. Xüsusən də sosial şəbəkələr üzərindən Azərbaycan Respublikasının müharibə reallıqlarını, Qarabağ həqiqətlərini qruplarımızla birlikdə dünyaya çatdırmışıq. Birlikdə səylərimiz nəticəsində Avropanın və regionumuzun bir sıra ölkələrində bizim tərəfimizdən sosial şəbəkələrdə açılan haştaqlar müəyyən müddət "ən çox oxunanlar" siyahısına da daxil ola bilib. Son olaraq isə ilk dəfə Naxçıvanda keçirilən şahmat olimpiadasında könüllü olmuşam və xarici vətəndaşlara ölkəmizin tarixi, mədəniyyəti haqqında da ətraflı məlumat verərək onlara Naxçıvan Muxtar Respublikasını daha yaxından tanıtmağa çalışmışam".

Yeni Azərbaycan Partiyasının üzvü olan ***Əzizə Novruzova*** 2018-ci ildə Naxçıvan Müəllimlər İnstitutuna qəbul olub və cari ildən etibarən həmin institutun Təhsildə sosial-psixoloji xidmət ixtisası üzrə magistr təhsilini davam etdirir. 2018-ci ildən Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin təşkil etdiyi tədbirlərdə iştirak edən Əzizə, 2021-ci ildən Naxçıvan Muxtar Respublikası Gənclər Fondunun könüllüsüdür: "Bu illər ərzində Gənclər Fondunun təşkil etdiyi xalçaçılıq, Gənclər və İdman Nazirliyinin təşkilatçılığı ilə keçirilən "Yaradıcı Gənclər Akademiyası" çərçivəsində piroqrafiya, Bakıda Əzim Əzimzadə adına Rəssamlıq Akademiyasının təşkil etdiyi rəssamlıq kurslarında iştirak etmişəm".



Muxtar respublikada təşkil edilən intellektual oyunların iştirakçısı olan Əzizə Novruzova, eyni zamanda 2014-2015-ci illərdə Respublika Gənc Turistlər və Diyarşünaslıq dərnəyinə də üzv olub: "2022-ci ildə "Heydər Əliyev və Azərbaycan tarixi" bilik yarışında, "Enactus" Azərbaycan sosial sahibkarlıq layihəsində iştirak etmişəm. Bununla yanaşı, Azərbaycan İstiqlal Muzeyində 20 Yanvar faciəsinə həsr edilən sərgidə və təhsildə kurikulum islahatları ənənəvi respublika elmi konfransında məruzə ilə çıxış etmişəm. Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin təşkil etdiyi "Yaşa və öyrən" bilik yarışında qalib adını qazanmışam. Müəllimlər İnstitutunun Tələbə Elmi Cəmiyyətində uğurlu iştirakıma görə ikinci və üçüncü yerlərə, muxtar respublikanın 95 illiyinə həsr olunan "Muxtariyyət – 95" bilik yarışında isə üçüncü yerə layiq görülmüşəm".

Naxçıvan Dövlət Universitetində Sosial iş ixtisası üzrə təhsil alan ***Məhəmməd Hüseynli*** könüllü fəaliyyətinə 2019-cu ildə Bakı şəhərində başlayıb: "İlk olaraq Bakı şəhəri 5 saylı "ASAN xidmət" mərkəzində könüllü olmuşam. Bu könüllü fəaliyyətim ərzində mərkəzdə görülən işlərlə yaxından tanış olub öyrənmişəm və vətəndaşlara ərizələrin yazılması, növbə verilməsi, şəxsiyyət vəsiqəsinin verilməsi və sair kimi işlərdə köməklik göstərmişəm. Bununla yanaşı, bu vaxt ərzində hərbi layihə olan "Hərbiyyə 101" layihəsində iştirak etdim və Beyləqan şəhərində əsgərlərlə birgə 5 gün qaldıq, orada komandalar arasında yarışlar təşkil etdik. Aprel döyüşləri zamanı işğaldan azad olunmuş Cocuq Mərcanlı və Lələtəpədə olduq. Layihənin sonunda "Cəbrayıl" komandası ilə üçüncü yerə layiq görüldük. Növbəti könüllü fəaliyyətim isə "Könüllü gömrükçü" olub. Dörd ay müddətində Bakı Baş Gömrük İdarəsində iş prosesini öyrəndim".



2021-ci ildə Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi, "İrəli" İctimai Birliyinin təşkilatçılığı ilə keçirilən "Marş irəli" hərbi layihəsində də iştirak etdim. Müxtəlif yarışlar keçirdik və sonda Murov komandası ikinci yerə layiq görüldük. Bir ildən artıq olar ki, Gənclər və İdman Nazirliyində könüllüyəm. 2022-ci ilin əvvəlində Ağbulaqda "Qış məktəbi" layihəsində, "İrəli" İctimai Birliyinin təşkilatçılığı ilə Tovuz şəhərində keçirilən "Gənclər davamlı inkişaf üçün" layihəsində nazirliyin könüllüsü olaraq iştirak etdim. Burada 23 regiondan olan gənclərlə birgə bizə 10 gün ərzində təlimçi olmaq, təlim zamanı gənclər arasında aktivliyi necə yaratmaq ilə bağlı geniş və ətraflı təlimlər keçirildi. Mən də bu təlim haqqında yay ayında Naxçıvanda Ağbulaqda keçirilən "Yay məktəbi"ndə iştirak edərək digər könüllü və gənc yoldaşlarımla bölüşdüm, onlara ətraflı məlumat verdim. Avqust ayında Şərur rayonunda keçirilən "Tarixə ekskursiya" layihəsi çərçivəsində gənclər arasında keçirilən intellektual oyunda "Qartal" komandası olaraq qalib adını qazandıq. Son olaraq isə Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi və "İrəli" İctimai Birliyinin təşkilatçılığı ilə "Region gənclərinin bacarıqlarının artırılması" layihəsinin iştirakçısı oldum və yeni məlumatlar öyrəndim. Bizə göstərilən bu diqqətə görə Gənclər və İdman Nazirliyinə gənclər adından təşəkkür edirəm".

*Göründüyü kimi, ölkəmizdə gənclərin üzləşdiyi sosial problemlərin aradan qaldırılması, onlara gələcək uğurlar üçün stimul verilməsi, həmçinin ölkədə yeni-yeni layihələrin yaradılması istiqamətində prioritetlər müəyyənləşdirilib. Gənclərə göstərilən dövlət qayğısı onlarda vətənpərvərlik hisslərinin inkişafına ciddi təkan verib. Ümumiyyətlə, Azərbaycanda gənclər siyasəti düzgün istiqamətdə qurulub. Əldə edilən uğurlu nəticələr də bunu bir daha təsdiqləyir.*

**✍ Ceyhun MƏMMƏDOV**

**Bildiriş**

"Zəfər Atıcılıq İdman Klubu" İctimai Birliyi fəaliyyətini dayandırdığından ləğv olunur.

ŞƏRQ qapısı

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Məcid Əkbərov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1000. Sifariş № 1168